# TİORETİN® A

*Tibbi vasitə*

Lipoy turşusu, hipromelloza və aminturşu tərkibli oftalmoloji məhlul

**Tərkibi**
Hidroksipropilmetilsellüloza (hipromelloza), alfa-lipoy turşusu, TRIS (hidroksimetil)-aminometan (trometamin), bor turşusu, natrium tetraborat, N-hidroksimetilqlisinat, natrium edetat, natrium xlorid, L-prolin, L-qlisin, L-lizin hidroxlorid, L-leysin, təmişlənmiş su 100 q-dək.

**Təsviri**
Tioretin® A hipromelloza və lipoy turşusu tərkibli izotonik steril oftalmoloji məhluldur. Göz səthini qoruyur, lyubrikant və antioksidant təsir göstərir, gözyaşı pərdəsini stabilləşdirir və bərpa edir.
Hipromelloza mukomimetik xüsusiyyətli polimer olub, qoruyucu, şəffaf və viskoelastik təbəqə əmələ gətirərək göz səthində gözyaşı pərdəsini stabilləşdirir.
Tibbi vasitənin tərkibindəki L-prolin, L-qlisin, L-lizin hoidroxlorid və L-leysin aminturşuları lyubrikant təsir göstərir və epitelin müxtəlif stresə qarşı müdafiəsinin yaxşılaşmasına şərait yaradır.
Məhsulun tərkibindəki natrium hidroksimetilqlisinat (N-IG) aminturşu törəməsi olub, antimikrob təsiri sayəsində göz səthinə mənfi təsir göstərməyən konservantdır.

**İstifadəsinə göstərişlər**
Oftalmoloji məhlul hüceyrə sistemində oksidləşmə-reduksiya potensialının disbalansı və göz səthində sərbəst radikalların toplanması səbəbindən buynuz qişa-konyunktivanın histoloji zədələnmələri zamanı gözyaşı pərdəsini stabilləşdirir və reinteqrasiya edir. Məhsul xüsusilə aşağıdakı oksidativ stress hallarında istifadə olunur:
- Metabolik mənşəli (yaşla əlaqəli diabet xəstəliyi)
- Fiziki-kimyəvi mənşəli

**İstifadə qaydası**
Həkimin məsləhətinə uyğun olaraq və ya gündə 2-3 dəfə konyunktiva kisəsinə 1-2 damcı damızdırılır.

**Əks göstərişlər**
Məhsulun tərkibindəki komponentlərdən hər hansı bilirnə və ya kimyəvi cəhətdən onlara yaxın olan maddələrə qarşı yüksək həssaslıq.

**Xüsusi xəbərdarlıqlar və ehtiyat tədbirləri**
Məhsul flakonun qapağı açılanadək sterildir.
İstifadə etdikdən sonra flakonun qapağını möhkəm bağlamaq və çirklənmənin qarşısını almaq üçün damızdırıcının ucunun gözə və ya digər səthlərə təmasından qaçınmaq lazımdır.
Flakon açıldıqdan 90 gün sonra məhluldan istifadə etmək olmaz.
Flakonun üzərində göstərilən istifadə müddəti keçdikdən sonra məhsuldan istifadə etmək olmaz.
Bu məhsul yalnız oftalmologiya sahəsində xaricə istifadə üçün nəzərdə tutulub.
Yanaşı olaraq oftalmoloji preparat təyin edilibsə, həkimlə məsləhətləşmək lazımdır.
Gözdə kontakt linza varsa, məhsulun istifadəsindən öncə kontakt linza çıxarılmalıdır.
Flakon zədələnmişdirsə, məhluldan istifadə etmək olmaz.
Göz infeksiyası olduğu halda məhluldan istifadə etmək olmaz.

**Saxlanma şəraiti:**
25°C-dən aşağı temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Əlavə təsirləri**
Bu məhsulun istifadəsi nəticəsində heç bir əlavə təsir müşahidə edilməyib.
Əlavə təsirlər müşahidə olunarsa, məhsulun istifadəsini dayandırmaq və müalicə həkimi ilə məsləhətləşmək lazımdır.
Məhlulu damızdırdıqdan sonra müvəqqəti olaraq yüngül bulanıq görmə halları müşahidə edilə bilər.

**Buraxılış forması**
8 ml-lik flakonda, karton qutu qablaşmada.

**İstehsalçı**
SOOFT italia S.p.A.
Contrada Molino, 17
63833 Montegiorgio (FM) Italy

STERILE | A




TIOAF_MENA_010113

Rev.1 date 25/01/13